*Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

*1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiya Azərbaycan xalqının inkişafı naminə müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidi təsbit etmişdir. Bu tarixi sənədin müəllifi xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan Konstitusiyası müasir dünyanın ən demokratik prinsip və müddəalarını özündə ehtiva edir




❒ ***Bugünkü gənc, müstəqil, qüdrətli Azərbaycan dövləti müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisidir. AXC parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil respublikanın konstitusiyasını qəbul etmək mümkün olmamışdı. Bu müqəddəs missiyanı ulu öndər Heydər Əliyev 1995-ci il noyabrın 12-də keçirilən referendumla reallaşdırmışdır.***

Ensiklopediyalarda yazılır ki, konstitusiya latın sözü olmaqla, "quruluş, təsisat" mənasını verir. Konstitusiya hər hansı ölkənin ictimai-siyasi və iqtisadi quruluşunun əsasını, idarəetmə formasını və dövlət quruluşunun formasını, şəxsiyyətin hüquq və vəzifələrini, mərkəzdə və yerlərdə hakimiyyət və idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətini, ədalət mühakiməsinin, seçki sisteminin təşkilini, əsas prinsiplərini və digər bu kimi məsələləri müəyyənləşdirən dövlətin ən yüksək hüquqi qüvvəyə malik qanunudur.

Məlum həqiqətdir ki, müstəqil dövlətimizin ilk milli Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkilərinin keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni mərhələsi başlanmışdı. Əsas Qanunumuzun ərsəyə gəldiyi proseslər xalqın gözünün qarşısında baş verirdi. 1995-ci ilin may ayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırılmışdı. Komissiyada deputatlar, peşəkar iqtisadçılar, filosoflar, hüquqşünaslar, cəmiyyətin nüfuzlu şəxsləri, siyasi partiyaların nümayəndələri təmsil olunurdular. Həmçinin Konstitusiya Komissiyasının nəzdində İşçi Qrupu fəaliyyət göstərirdi. Komissiya konstitusiya layihəsini hazırladı, həmin ilin oktyabr ayında layihə ümumxalq müzakirəsinə çıxarıldı. Konstitusiya 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində – referendumda qəbul edildi.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Ekspertlərin fikrincə, Azərbaycan Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər öz əksini tapmışdır. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan hüquq və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

Hüquq və azadlıqların universal xarakteri onların yaranmasının mexanizmini və əsaslarını ifadə edir. Konstitusiyaya uyğun olaraq insan anadangəlmə, yəni doğulduğu vaxtdan etibarən hüquq azadlıqlarına malik olur, onların daşıyıcısına çevrilir. Ona görə də mütəxəssislər yazırlar ki, Azərbaycan Respublikasının Konstitusiyası müasir dövrün ən demokratik prinsip və müddəalarını özündə ehtiva edir.

1995-ci il Konstitusiyasına mövcud olduğu 23 il ərzində cəmi üç dəfə dəyişiklik və əlavələr edilib. Doğrudur, 1978-ci il Konstitusiyası Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu təsbit etməsi ilə mühüm əhəmiyyət kəsb edirdi. Xatırladaq ki, həmin müddəa da ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindəndir. Ancaq ümummilli liderimiz Azərbaycanın dövlət müstəqilliyinə əbədilik qazandırmaqla elə bir tarixi nailiyyətə imza atıb ki, onu başqa heç bir faktla müqayisə etmək mümkün deyildir.

Xatırladaq ki, müstəqilliyin ilk illərində ölkədə sabitlik pozulmuşdu. Məhz belə bir şəraitdə ilk növbədə sabitlik və təhlükəsizliyi təmin etmək lazım idi. Heydər Əliyev həmin missiyanın öhdəsindən məharətlə gəldi.

Konstitusiyanın qəbulunu həm də siyasi, iqtisadi, sosial və mədəni sahələrdə baş verən fundamental dəyişikliklər, yeniliklər şərtləndirirdi. Əsas Qanunumuz müstəqil dövlət quruculuğu prosesi fonunda mövcud şəraiti tənzimləyəcək, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında baş verən köklü dəyişiklikləri özündə ehtiva edəcək, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində hüquqi baza rolunu oynayacaq mütərəqqi bir Konstitusiya oldu.

Heydər Əliyev Konstitusiyasında dövlətin əsasları məsələsi təsbit edilmiş, Azərbaycan demokratik, dünyəvi, unitar və respublika idarəetmə formasına malik dövlət elan olunmuşdu. Əsas Qanunun ikinci fəslinə nəzər yetirdikdə görürük ki, orada dövlətin əsasları, onun hüquqi dövlət kimi xarakterizə olunması ilə bağlı müddəalar öz əksini tapır.

Bundan başqa, Əsas Qanunumuzun yeddinci maddəsinin üçüncü bəndində hakimiyyət bölgüsü nəzərdə tutulur. Göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında formalaşdırılır. İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Hakimiyyətin qolları öz səlahiyyətləri çərçivəsində müstəqildir, biri digərinin fəaliyyətinə müdaxilə edə bilməz, lakin biri digərinin fəaliyyətinə Konstitusiyanın müəyyənləşdirdiyi çərçivədə nəzarəti həyata keçirir.

Bugünkü Azərbaycan Konstitusiyasında bir sıra yeni institutlar da təsbit olunmuşdur. Məsələn, insan hüquq və azadlıqları insanın təbii hüquqlarını tanımış oldu – Konstitusiyanın 24-cü maddəsində qeyd edilir ki, hər kəsin doğulduğu andan ayrılmaz, pozulmaz, toxunulmaz hüquq və azadlıqları var, bu hüquq və azadlıqlar onların cəmiyyət və digər şəxslər qarşısında öhdəliklərini ehtiva edir. Bu, onu ifadə edir ki, insana hüquqlar dövlət tərəfindən bəxş olunmur, bu hüquqlar təbii şərtlərdən – insanın zəkaya, iradəyə, təfəkkürə malik olan ali varlıq olmasından irəli gəlir. Dövlət bu hüquqları tanımalı və təmin etməlidir.

Xatırladaq ki, 1995-ci il Konstitusiyası nə qədər təkmil və mütərəqqi olsa da, ötən zaman müddətində ona əlavə və dəyişikliklərin edilməsi ilə bağlı üç dəfə ümumxalq səsverməsi – referendum keçirilmişdir. Öncə 24 avqust 2002-ci il tarixində Konstitusiyaya 24 maddədə 29 əlavə və dəyişiklik edilmişdir. Bundan sonra 2009-cu il mart ayının 18-də Azərbaycan Konstitusiyasının 25 maddəsinə 30-dan artıq əlavə və dəyişiklik edilmiş oldu. 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına əsasən isə ölkədə Birinci vitse-prezidentlik və vitse-prezidentlik institutları yaradılmışdır.

Təbii ki, bu dəyişiklikləri şərtləndirən bir sıra amillər vardır. Ən əsas faktor budur ki, müasir dövrdə Azərbaycan dövlətinin siyasi, sosial, iqtisadi inkişaf dinamikası o qədər sürətlidir ki, o, Avropa ölkələrinin vaxtilə demokratikləşmə prosesində 100 ilə keçdiyi yolu 10 ilə keçə bilir.

Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Konstitusiyası təkcə demokratikliyinə görə deyil, həm də humanist prinsiplərin zənginliyinə görə bir çox ölkələr üçün örnək ola biləcək səviyyədədir.

*Hazırladı:*
***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***